İMANIN RÜKUNLARI

4

# الإيمان بالرسل

# PEYĞƏMBƏRLƏRƏ İMAN




**Şeyx**

**Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu

Azərbaycan dili

اللغة الأذرية

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

# İMANIN RÜKUNLARI:
# PEYĞƏMBƏRLƏRƏ İMAN

Uca Allah buyurur:

قال تعالى: ﴿لَقَدۡ مَنَّ ٱللَّهُ عَلَى ٱلۡمُؤۡمِنِينَ إِذۡ بَعَثَ فِيهِمۡ رَسُولٗا مِّنۡ أَنفُسِهِمۡ يَتۡلُواْ عَلَيۡهِمۡ ءَايَٰتِهِۦ وَيُزَكِّيهِمۡ وَيُعَلِّمُهُمُ ٱلۡكِتَٰبَ وَٱلۡحِكۡمَةَ وَإِن كَانُواْ مِن قَبۡلُ لَفِي ضَلَٰلٖ مُّبِينٍ ١٦٤﴾ [آل عِمۡرَان : ١٦٤]

"Allah möminlərə, öz aralarından onlara (Allahın) ayələrini oxuyan, onları (günahlardan) təmizləyən, onlara Kitabı və Hikməti (Sünnəni) öyrədən bir Elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər."[1]

Pyğəmbərlərə iman İmanın rükunlarından biri və vacib etiqadın ən vaciblərindəndir.

Peyğəmbərlər Allahın risalətini çatdıran və Onun məxluqlar üzərində hüccətini qaldıran şəxslərdir.

Peyğəmbərlərin göndərilməsi məxluqata olan ən əzəmətli nemətlərdəndir. Xüsusi ilə elçilərin ən fəzilətlisi və peyğəmbərlərin sonuncusu olan Muhəmməd ﷺ peyğəmbər.

Peyğəmbərlərə iman bu şeyləri gərəkdirir:

- Uca Allahın hər bir ümmətə öz içindən bir elçi göndərdiyinə, onları Allaha ibadət etməyə və Ondan

[1] Ali İmran surəsi, 164-cü ayə

başqa ibadət edilənləri inkar etməyə çağırdığını təsdiq etmək.

- Onların hamısının doğru danışdıqlarına və Allahın onlara göndərdiyi hər şeyi çatdırdıqlarına, gizlətmədikləri və dəyişdirmədiklərinə etiqad etmək.
- Onların hamısının tövhidə dəvət etdiklərinə iman etmək

Uca Allah buyurur:

قال تعالى: ﴿وَمَآ أَرۡسَلۡنَا مِن قَبۡلِكَ مِن رَّسُولٍ إِلَّا نُوحِىٓ إِلَيۡهِ أَنَّهُۥ لَآ إِلَٰهَ إِلَّآ أَنَا۠ فَٱعۡبُدُونِ ٢٥﴾

[الأَنبِيَاء : ٢٥]

“Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: “Məndən başqa ibadətə layiq heç bir ilah yoxdur, Mənə ibadət edin!”– deyə vəhy etməyək.”[2]

Amma onların şəriət və əhkamları fərqli olub.

Uca Allah buyurur:

قال تعالى: ﴿لِكُلّٖ جَعَلۡنَا مِنكُمۡ شِرۡعَةٗ وَمِنۡهَاجٗا﴾ [المَائِدَة : ٤٨]

“Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik.”[3]

- Onlardan birinin risalətini inkar edənin hamısının risalətini inkar etməsinə etiqad etmək.

Uca Allah buyurur:

---

[2] əl-Ənbiya surəsi, 25-ci ayə

[3] əl-Maidə surəsi, 48-ci ayə

قال تعالى: ﴿كَذَّبَتۡ قَوۡمُ نُوحٍ ٱلۡمُرۡسَلِينَ ١٠٥﴾ [الشُّعَرَاء : ١٠٥]

"Nuh tayfası da elçiləri yalançı saydı."[4]

Allah onları bütün elçiləri yalançı saydıqlarını dedi, halbuki yalançı saydıqları zaman Ondan (Nuhdan) başqa elçi yox idi.

- Allahın onları heyrətli möcüzələrlə və aşkar dəlillərlə dəstəklədiyinə iman etmək.
- Onlar haqqında gələn səhih xəbərləri təsdiq etmək.
- Peyğəmbərimiz Muhəmmədin sonuncu peyğəmbər olmasına ondan sonra heç bir peyğəmbərin olmamasına iman etmək.

Uca Allah buyurur:

قال تعالى: ﴿مَّا كَانَ مُحَمَّدٌ أَبَآ أَحَدٖ مِّن رِّجَالِكُمۡ وَلَٰكِن رَّسُولَ ٱللَّهِ وَخَاتَمَ ٱلنَّبِيِّـۧنَۗ وَكَانَ ٱللَّهُ بِكُلِّ شَيۡءٍ عَلِيمٗا ٤٠﴾ [الأَحْزَاب : ٤٠]

"Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir."[5]

- Onların Allah yanında məqamlarının bir-birindən fəzilətli olmasına və onların ən fəzilətlisinin Muhəmməd ﷺ olduğuna etiqad etmək.

[4] əş-Şuəra surəsi, 105-ci ayə
[5] əl-Əhzab surəsi, 40-cı ayə

Elçilərə imanın böyük bəhrələri vardır. Bunlar:

- Uca Allahın bəndəsinə olan rəhmətini və qayğısını bilmək, çünki o kəramətli peyğəmbərləri onlara hidayət və doğru yolu göstərmək üçün göndərmişdir.
- Bu böyük nemətə görə Allaha şükr etmək.
- Peyğəmbərləri sevmək, onlara ehtiram göstərmək və onlara layiq olduğu şəkildə təriflər söyləmək. Çünki onlar uca Allahın elçiləri və onun seçilmiş bəndələridirlər.
- Uca Allahın qüdrətini və Onun yaratdıqlarının bəzilərini seçdiyini və bəzilərini digərlərindən üstün tutduğunu bilmək.
- Onların gətirdiklərindən yapışmaq dünya və axirət səadətinə aparan yoldur.